*Eldəniz Səlimov:*

# Yeni Azərbaycan Partiyası ötən 27 ildə böyük inkişaf yolu keçmiş partiyadır



"Yeni Azərbaycan Partiyası ötən 27 ildə böyük inkişaf yolu keçmiş partiyadır". Bu fikri Milli Məclisin deputatı Eldəniz Səlimov deyib.

E.Səlimov bildirib ki, ümummilli lider Heydər Əliyevin ideyaları, qətiyyəti və uzaqgörənliyi ilə yaradılan YAP ölkəmizin ictimai-siyasi həyatına daxil olması ilə Azərbaycanın tarixində yeni bir dövrün başlanğıcını qoydu. Partiya yaradılandan sonra YAP sədri Heydər Əliyevin ətrafına nüfuzlu, hörmətli insanlar, alimlər, elm xadimləri toplaşdı. Az müddətdə güclü monolit və mütəşəkkil siyasi qüvvəyə çevrildi. Qısa müddətdə Azərbaycan xalqının çoxsaylı müraciətləri və təkidi ilə hakimiyyətə gəldi. Azərbaycanı vətəndaş müharibəsindən xilas etdi. Ölkədə baş verən hərc-mərcliklər və özbaşnalıqlara son qoydu. Ölkənin inkişaf proqramı hazırlandı və uğurla həyata keçirildi. Nəticədə ölkəmiz inkişaf etdi.

"Bu gün də möhtərəm Prezidentimizin rəhbərliyi ilə sürətli inkişaf mərhələsindədir. Ulu Öndərin müəyyənləşdirdiyi siyasi kurs uğurla davam etdirilir. YAP-ın Ulu Öndərin yaratdığı partiya olduğunu, ölkəmizin ictimai-siyasi həyatdakı rolunu və möhtərəm Prezidentimizin sədrliyi və nüfuzunu görən hər bir Azərbaycan vətəndaşı partiya sıralarına üzv olurlar. Bunların arasında gənclərin axını daha çoxdur. Ulu Öndər tərəfindən gənclər həmişə yüksək qayğı ilə əhatə olunmuşlar. Bu gün də gənclərin lideri hörmətli Prezidentimiz İlham Əliyev gənclərə böyük diqqət və qayğı göstərir. Hazırda partiyamızın üzvlərinin sayı 750 min nəfərə yaxındır. Bu onu göstərir ki, partiyaya axın gündən-gündən çoxalır. YAP ictimai-siyasi həyatda fəal iştirak etməklə ölkənin inkişafına da öz töhfəsini verməkdədir" - deyə deputat qeyd edib.



İki sahil.-2019.- 21 noyabr.- S.4.